

# Postsovet məkanındakı hakimiyyət dəyişikliyi prosesinin növbəti dayanacağı

*Keçmiş Sovet İttifaqının əhalisinin sayına və siyasi-iqtisadi çəkisinə görə ikinci böyük respublikası olan Ukraynada baş verən siyasi proseslər bütün postsovet məkanına təsir etdiyi üçün bu ölkədə keçirilən son prezident seçkisi də bütün sabiq müttəfiq respublikalarda diqqətlə izləndi. Ukraynada baş verən proseslərin postsovet məkanına təsirinin miqyası ilə bağlı bir neçə baxış var.*

Səh.10

24 səhifə
Həftəlik qəzet

UNİKAL

№24 (1963) 27 aprel 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



# Elmar Məmmədyarovdan narazılıq artır

*Prezidenti İlham Əliyevin 2 aprel 2004-cü il tarixli sərəncamı ilə Azərbaycanın xarici işlər naziri vəzifəsinə təyin edilən Elmar Məmmədyarov artıq 15 ildir ki, bu vəzifədədir. Lakin ötən dövr ərzində onun Azərbaycanın xarici siyasətində xüsusi rolu olduğu hiss edilməyib. Təbii ki, Azərbaycanın xarici siyasətində kifayət qədər uğurlar var, amma burada XİN rəhbərinin payı olduqca azdır. Prezident İlham Əliyevin yürütdüyü balans və hərtərəfli xarici siyasət ölkəmizin dünya dövlətləri sırasında qabaqcıl yerlərdən birini tutmağa səbəb olub. Lakin ölkənin xarici siyasət idarəsinin rəhbəri kimi Məmmədyarovun ölkə başçısının bu siyasətinə qatqısı olduqca aşağıdır.*

*Elmar Məmmədyarovun ötən 15 ildəki fəaliyyətinə qiymət vermək üçün ictimai-siyasi düşərgənin nümayəndələri ilə söhbətləşdirk. Fikirlərini "Unikal" qəzeti ilə bölüşən siyasilər Məmmədyarovu müsbət persona kimi dəyərləndirmədilər.*

Səh.13

Səh.14



# Nazim İbrahimovla qardaşlarının müəmmalı toxunulmazlığı...

## Tale Heydərov Azərbaycanı tərk edib



*Bir zamanlar ölkənin ən qüdrətli oliqarxlarından sayılan fövqəladə hallar naziri Kəmaləddin Heydərov karyerasının heç də yaxşı günlərini yaşamır. "Unikal" olaraq, bir müddət əvvəl də yazdığımız kimi, "fövqəlnazir"in nüfuz dairəsi son vaxtlarda kəskin daralıb; bu mənada onun ətrafında baş verənləri bir az da keçmiş nəqliyyat naziri, vaxtilə "qüdrətli" məmur-oliqarxlardan sayılan Ziya Məmmədovun "vurulması" ilə nəticələnən prosesə müqayisə etmək mümkündür.*

Səh.6

## "Müxalifət partiyaları arasında siyasi paxıllıq var"



*"Unikal" qəzetinin budəfəki müsahibi Respublikaçı Alternativ (REAL) Partiyasının icra katibi, tanınmış iqtisadçı Natiq Cəfərlidir. Müsahibimizlə həm ölkədəki ictimai-siyasi proseslər, müxalifətdaxili münasibətlər, həm də iqtisadi durumla bağlı söhbətləşdik.*

Səh.4

## Mərkəzi Bankı uçot dərəcəsini azaldıb



*Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsini 9%-dən 8,75%-ə endirilməsi haqda qərar qəbul edib. Bunu AMB-nin sədri Elman Rüstəmov faiz dəhlizinin parametrlərinə həsr olunmuş mətbuat konfransında bildirib.*

Səh.14